# Enerji əməkdaşlığında "yaşıl" üfüqlər




## Bakı Enerji Həftəsi qlobal aktorların diqqətindədir

*Azərbaycan nəinki regional, qlobal səviyyədə keçirilən müxtəlif tədbirlərin ev sahibinə çevrilib. İyunun 4-də Bakıda qlobal enerji sahəsində mühüm hadisə olan Bakı Enerji Həftəsi çərçivəsində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimi baş tutdu. Cənab Prezident İlham Əliyev də tədbirdə çıxış edərək bir sıra önəmli mesajlar verdi.*




Ümumiyyətlə, hər il keçirilən və özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində liderləri bir araya gətirməklə dünya ictimaiyyətinin diqqətini Azərbaycana cəmləyir. Hələ müstəqilliyin ilk illərində ölkəmizin xarici siyasətinin ən vacib istiqamətlərindən birini məhz enerji siyasəti təşkil edirdi. Azərbaycanın enerji siyasətinin bir neçə istiqaməti mövcud idi. Respublikamızın daxili enerji təhlükəsizliyinin təmini, eləcə də digər dövlətlərin enerji təhlükəsizliyinə töhfəsi bu istiqamətlərin əsası hesab olunur. Bu baxımdan, Azərbaycanın enerji ehtiyatlarının hasilatı, eləcə də bu ehtiyatların beynəlxalq bazarlara çıxarılması ilə bağlı yeni imkanların yaradılması böyük əhəmiyyətə malikdir. Bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası 1994-cü ilin sentyabrında 15 dövlətdən 33 şirkətin iştirakı ilə imzalanan "Əsrin müqaviləsi"nin reallaşması üçün labüd şərait yaratdı. Məhz bu müqavilə dövlətimizin imza atdığı ilk beynəlxalq neft anlaşması idi və ilk gündən adı, tarixi önəmi və gələcəyə hesablanmış strateji mahiyyəti ilə müstəqillik salnaməmizdə ən layiqli yerini tutdu. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdəki nitqində ölkəmizin ümumi iqtisadi və siyasi inkişafının məhz "Əsrin müqaviləsi" ilə başladığını xüsusi nəzərə çatdırmışdır: "Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin kontraktı"ndan başlamışdır. Yeni neft strategiyamız 20 ildir ki, icra edilir. Ölkəmiz üçün böyük fayda gətiribdir. Bu illər ərzində Azərbaycan öz imkanlarını ardıcıl şəkildə genişləndirmişdir".

Qeyd edək ki, Bakı Enerji Həftəsində baş tutan tədbirlərə Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir. Artıq 30-dan çox ölkədən 300-dək şirkət Bakı Enerji Həftəsində iştirak edir. İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər isə ilk dəfədir ki, bu tədbirə qatılırlar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən şirkətlər hesabına yenilənib ki, onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, sərgilərin daimi iştirakçılarına məxsusdur.

Xatırladaq ki, ulu öndər 1994-cü ildə Azərbaycanın neft-qaz sənayesində ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü dəstəklədi və həmin dövrdən etibarən "Caspian Oil&Gas" sərgisi neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrildi. Son illər ərzində nəinki Azərbaycanda, həmçinin Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük layihələr imzalanmağa davam edir. "Şahdəniz-2", TANAP və TAP layihələrinin adını burada xüsusi vurğulamalıyıq. Bu baxımdan, Bakı Enerji Həftəsinin növbəti dəfə keçirilməsi bizə gələcək perspektivlər və enerji siyasətimizi daha da yaxşılaşdırmaq üçün mühüm rola malikdir. Yeri gəlmişkən, Azərbaycan və qardaş Türkiyə arasında dünən imzalanan "Şahdəniz-1" yatağından Azərbaycan qazının tədarükünə dair uzadılmış sazişə əsasən, 2030-cu ilə qədər Türkiyəyə tədarükün həcmi ildə 3,5 milyard kubmetr təşkil edəcək. Xatırladaq ki, "Şahdəniz" yatağının birinci mərhələsindən Türkiyəyə təbii qazın tədarükü 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə başlanıb. 2021-ci ilin III rübündə Azərbaycan və Türkiyə arasında Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə nəql ediləcək 11 milyard kubmetr təbii qazın alqı-satqısı haqqında yeni müqavilə imzalanıb. Müqavilə 2024-cü ilin sonunadək (2021-ci ilin IV rübü - 2024-cü il) "Şahdəniz-1" çərçivəsində ildə 3,7 milyard kubmetr qazın nəqlini nəzərdə tutur.

İkinci Qarabağ müharibəsində qazandığımız zəfərdən sonra ölkəmizə rəğbət daha da artıb, yüksək hörmət və etimad göstərilir. Ölkəmizin yürütdüyü praqmatik enerji siyasəti regional və qlobal işbirliyini, beynəlxalq təhlükəsizliyə xidmət edən yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir. Xüsusilə, "yaşıl enerji"yə olan tələb bu əməkdaşlığı daha da gücləndirir. Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan aparıcı dövlətdir. Məlumdur ki, Şərqi Zəngəzur və Qarabağ "yaşıl enerji zonası" elan edilib. Həmin ərazilərin 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Dövlətimiz hazırda "yaşıl kənd təsərrüfatı", "yaşıl nəqliyyat" kimi layihələri də uğurla tətbiq edir. Azərbaycan dünyada neft hasilatında nüfuz qazanmış dövlətlərdən olsa da, "yaşıl enerji" ilə bağlı mühüm layihələr həyata keçirir.



Qeyd etdiyimiz kimi, Bakı Enerji Həftəsi qlobal oyunçuların gündəliyində ön sırada qərarlaşır. Xüsusilə, okeanın o tayından - ABŞ-dan gələn maraq bunu deməyə əsas verir ki, rəsmi Vaşinqton enerji sahəsindəki əməkdaşlığı genişləndirmək arzusundadır. Məhz Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Baydenin iyunun 1-də Prezident İlham Əliyevə ünvanladığı məktub ABŞ-ın Cənubi Qafqazda etibarlı tərəfdaş qismində məhz Azərbaycanı gördüyünü təsdiq edir. Ölkələrimiz arasında xüsusilə enerji sahəsindəki əməkdaşlığın əhəmiyyətindən bəhs edən Bayden qeyd edib ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşdır. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu rəsmi Vaşinqton bir ay ərzində sayca ikinci məktubudur. Bu, bir daha ABŞ-ın Cənubi Qafqazdakı ən güclü tərəfdaşının Azərbaycan olduğunu sübut edir. Co Baydenin məktubunda ən vacib faktor transmilli cinayətlərə, enerji sahəsindəki təhlükələrə qarşı güclərin birləşdirilməsi, ikitərəfli ticarət və sərmayələrlə bağlıdır. Məktubda geniş əməkdaşlıqdan bəhs edilir. ABŞ-ın investisiyaları enerji təhlükəsizliyinin təmin olunmasında, yəni Avropanın bütövlükdə enerji asılılığından azaldılmasında Azərbaycanın çox böyük rolu var. Şübhəsiz, bərabərhüquqlu əməkdaşlıq əlaqələrinin qurulmasına daim töhfə verən Azərbaycan dövləti ABŞ-ın geosiyasi müstəvidəki neytrallığına paralel olaraq enerji və digər sahələrdəki əməkdaşlıqları daha da gücləndirəcəkdir.

Bir məqamı da qeyd edək ki, Azərbaycan bir çox ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyinin təmin olunmasında fəal rol oynayır. Xüsusilə, bu işdə qardaş Türkiyənin böyük əməyi var. Yeri gəlmişkən, Bakı Enerji Həftəsi çərçivəsində energetika naziri Pərviz Şahbazovla ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub. Görüşdə Azərbaycan-Türkiyə qardaşlığı və strateji müttəfiqlik enerji əməkdaşlığının möhkəmlənməsindən məmnunluq ifadə edilib. Hər iki ölkə liderinin Azərbaycan-Türkiyə enerji əməkdaşlığına böyük önəm verdiyi qeyd olunub. Neft-qaz sahəsində birgə həyata keçirilən enerji layihələrinin region və Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatındakı rolundan bəhs edilib. Çoxşaxəli enerji tərəfdaşlığının yeni mərhələdə inkişafını təmin edən təbii qaz və "yaşıl enerji" sahələrindəki prioritetlər və gündəlikdə olan layihələr nəzərdən keçirilib. Azərbaycan ilə Türkiyə arasında təbii qaz sahəsində çoxşaxəli əməkdaşlıq gündəliyinin olduğu, müvafiq Hökumətlərarası Sazişlə Azərbaycandan və üçüncü ölkələrdən Türkiyə və Avropaya qaz tədarükünə imkanlar yarandığı vurğulanıb.




Bu baxımdan, Bakı Enerji Həftəsinin ölkəmizdə keçirilməsi də bu fəaliyyətə töhfə verir. Çünki konfrans öz növbəsində, enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi platformadır. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimində çıxış edən ölkə başçımız bildirdi ki, 2027-ci ilin sonunda 2 qiqavat bərpaolunan enerji əldə edəcəyik. Təsadüfi deyil ki, hələ 2020-ci il yanvarın 9-da Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb. "ACWA Power" şirkəti ilə 240 MVt gücündə külək, "Masdar" şirkəti ilə isə 200 MVt gücündə günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələrin icrası məhz bu sənədlərlə reallığa çevriləcək. Bununla yanaşı, həmin il dekabrın 30-da Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında külək elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Ötən il yanvarın 13-də isə "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bundan başqa, 2022-ci il martın 15-də Bakıda keçirilən 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində "Masdar" şirkəti ilə dörd anlaşma memorandumu imzalanıb.

Xüsusilə, enerji sahəsində görülən işlər, qlobal problemlərin həllində inklüziv yanaşmanın ortaya qoyulması Azərbaycanın artan nüfuzundan xəbər verir. Məhz COP29-a ölkəmizin ev sahibliyi etməsi reallığı bir daha deyilənləri təsdiq edir. COP29-un Azərbaycanda keçirilməsi həm ölkəmiz, həm də bütün dünya üçün böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, bu mötəbər toplantı Azərbaycanın nüfuzunu zirvələrə qaldıracaq. Eyni zamanda tədbir dünyanın diqqətini Azərbaycana yönəldəcək və onun davamlı inkişaf prinsiplərinə bağlılığını nümayiş etdirəcək. Azərbaycan BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik etmiş və növbəti sədrlərə uğurlu miras buraxmışdır. Ölkəmiz qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirmişdir. Ölkəmiz yüksək inkişaf göstəricilərinə sahibdir və belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura malik olmağımız, təhlükəsizlik baxımından "sabitlik adası" statusumuz bütün dünya ictimaiyyətinə məlumdur. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, ölkəmizin 2024-cü ildə dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibi seçilməsi Azərbaycan Prezidentinin növbəti qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur.

Ümumiyyətlə, Bakı Enerji Həftəsinin timsalında ölkəmizin mötəbər tədbirlərə ev sahibliyi dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqli və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. Baş tutan tədbirlər, konfranslar isə özlüyündə enerji sahəsində yeni əməkdaşlığın qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə təkan verəcəkdir.

**Nurlan ABDALOV,**
**"Respublika".**